

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

**14 avqust 2025-ci il**
Cümə axşamı

1933-cü ildən çıxır
№ 31 (3743)


# Liderlərin sülh sammiti

**Prezident İlham Əliyevin avqustun 7-8-də Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri Cənubi Qafqazda uzunmüddətli sülhə, sabitliyə aparan yolun başlanğıcını qoydu.**



Regionun lider ölkəsi olan Azərbaycan rəhbərinin dünyanın ən güclü dövləti ABŞ-nin Prezidentinin dəvəti ilə gerçəkləşən və beynəlxalq ictimaiyyətin, medianın nəticələrini diqqətlə izlədiyi, yerli və əcnəbi siyasi ekspertlərin sülhlə bağlı böyük gözləntilərinin olduğu bu vacib səfəri əldə edilən tarixi nailiyyətlər baxımından olduqca zəngin keçdi.

Ölkəsinin ərazi bütövlüyünü, suverenliyini təmin edən qalib lider eyni zamanda sülh təşəbbüskarının müəllifi kimi Vaşinqtona səfər edən Prezident İlham Əliyev tarixi sammitdə Azərbaycana həm də qürurlu diplomatiya qələbəsi bəxş etdi. Yürütdüyü qətiyyətli və uzaqgörən siyasət sayəsində ölkəmizi bütövləşdirən Prezident İlham Əliyevin həyata keçirdiyi çevik, zamanın çağırışlarına cavab verən diplomatik siyasətinin nəticəsidir ki, avqustun 8-də Vaşinqton sülh sammitində imzalanan Birgə Bəyannamə məhz Azərbaycanın milli maraqlarının təmini əsasında formalaşdırıldı.

*“Prezident İlham Əliyev dünyada əmin-amanlığın və barışın tərəfdarı olaraq sülhü də qazandı”*

Müzəffər Ali Baş Komandan kimi müharibədə qələbə çalaraq tarixi ədaləti təmin edən Prezident İlham Əliyev dünyada əmin-amanlığın və barışın tərəfdarı olaraq sülhü də qazandı.

Prezident İlham Əliyevin Vaşinqtona işgüzar səfəri ABŞ-Azərbaycan əlaqələrində yeni və

## Azərbaycanın milli maraqları təmin olunur

uğurlu gələcəyə hesablanmış səhifələr açır və bu əməkdaşlıq strateji tərəfdaşlığa doğru irəliləyir. Səfər zamanı imzalanmış "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" bunun bariz göstəricisidir.

Ölkəmizin rəhbərinin ABŞ-yə işgüzar səfəri zamanı Prezident Donald Tramp tərəfindən "Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişin icrasının dayandırılması haqqında sənəd imzalandı. Bununla Azərbaycan xalqına qarşı həyata keçirilən 33 illik haqsızlığa da son verildi.

Ermənistan-Azərbaycan yekun sülh müqaviləsinin imzalanması üçün İrəvanın sadəcə Bakının beynəlxalq hüquqa dayanan tələblərini yerinə yetirməsi lazımdır. Bəlli olduğu kimi, Ermənistan konstitusiyasının preambula hissəsində müstəqillik bəyannaməsinə istinadən ölkəmizə qarşı ərazi iddiaları yer alır.

ATƏT-in Minsk qrupunun fəaliyyəti de-fakto dayanmışdı. Ancaq Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin imzaladığı Birgə Bəyannamədə Minsk qrupunun ləğv edilməsi üçün iki ölkənin ATƏT-in Baş katibinə birgə müraciət etməsi barədə razılığa gəlməsi ilə daimi sülhün əsas şərtlərdən birini yerindəcə həll etdi.

Eyni zamanda Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin və sülhün qurulmasına dair Sazişin mətni paraflanandan sonra adıçəkilən "sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün növbəti addımların atılması"nın zəruriliyi tanınır. Yəni yekun sülh sazişinin imzalanması üçün əsas tələblərdən biri - Ermənistan konstitusiyasının dəyişdirilməsinin zəruriliyi təsdiq olunur.

Bölgədə kommunikasiyaların açılması məsələsi də öz həllini tapır.

Bir sözlə, Prezident Donald Trampın iştirakı ilə Azərbaycan-Ermənistan liderlərinin Vaşinqton sülh sammiti əldə olunan tarixi nailiyyətləri ilə yadda qaldı. Vaşinqton sammiti zamanı razılaşmalar əldə edilməsi, Azərbaycan və Ermənistan liderləri tərəfindən Birgə Bəyannamə imzalanması ümumilikdə Cənubi Qafqazda uzunmüddətli sülh və sabitliyin təmin olunması istiqamətində atılmış vacib addım oldu.

# Yeni Zəngəzur dəhlizi

## Adı dəyişsə də, mahiyyəti dəyişməyib

Azərbaycan, ABŞ və Ermənistan liderlərinin imzaladığı birgə bəyannamədə mühüm məqamlardan biri Azərbaycanın əsas hissəsindən Naxçıvana və əks istiqamətdə maneəsiz hərəkətin təmin edilməsinin vacibliyinin təsdiqlənməsi oldu. Söhbət Bakının təkid etdiyi Zəngəzur dəhlizindən gedir. ABŞ-də bu dəhlizə şərti olaraq "Tramp marşrutu" adı verilsə də, məsələnin mahiyyəti dəyişməyib.

Bu hadisə Cənubi Qafqazın inkişafında yeni mərhələ kimi qiymətləndirilə və regionun gələcəyi ilə bağlı beynəlxalq iştirakın daha da fəallaşdığının göstəricisi kimi dəyərləndirilir.

Zəngəzur dəhlizi sadəcə nəqliyyat arteriyası deyil, həm də yeni geosiyasi reallığa doğru atılmış mühüm addımdır.

Bu dəhliz Azərbaycanın regional mövqelərini gücləndirir, mühüm tərəfdaşlarla iqtisadi, mədəni və müdafiə sahələrində əməkdaşlığın genişlənməsi üçün imkanlar açır.

Layihə Azərbaycanın köhnə logistika marşrutlarından asılılığını azaldır və onun müstəqilliyini, ərazi bütövlüyünü qorumaq əzmini nümayiş etdirir.

Ermənistan üçün isə bu dəhlizin açılması xarici siyasətin diversifikasiyası və təhlükəsizlik yanaşmalarına yenidən baxış imkanı verir. Layihə İrəvandan müttəfiqlərinə yeni münasibət formalaşdırmağı tələb edir və regionda sabitliyin daha geniş əməkdaşlıq fonunda gücləndirilməsinə xidmət edir.

Mütəxəssislər hesab edirlər ki, Ermənistanda sülhə qarşı olan daxili qüvvələrin siyasi manipulyasiya alətinə çevrilmiş “Zəngəzur dəhlizi” termininin bundan sonra “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” kimi adlandırılması Azərbaycan üçün texniki məsələdir.

Əsas odur ki, “Tramp sülh yolu” vasitəsilə ölkəmizin strateji hədəflərindən biri reallaşacaq və Azərbaycan Ermənistan ərazisi vasitəsilə özünün digər ərazisinə - Naxçıvana maneəsiz keçid əldə edəcək.

Xüsusilə vurğulanmalıdır ki, Ermənistanın postmüharibə dövründə Naxçıvana dəhlizin açılmasına qarşı çıxması, müxtəlif bəhanələr irəli sürməsi danışıqlar prosesinə mənfi təsir göstərən, qarşılıqlı etimadı azaldan amillərdən biri olub. Bu mənada, Vaşinqtonda əldə edilmiş razılaşmalar Ermənistan Konstitusiyasının ərazi iddialarına yol açan müddəalarının dəyişdirilməsindən sonra yekun sülh sazişinin imzalanmasına imkan verəcək. Bu təşəbbüsün geosiyasi çəkisi və strateji hədəfləri danılmazdır.

Azərbaycanın eksklavı olan Naxçıvana maneəsiz nəqliyyat çıxışını təmin edəcək bu yolun 99 il müddətinə ABŞ-a icarəyə verilməsi həm siyasi, həm də təhlükəsizlik baxımından Azərbaycan maraqlarına uyğundur.

# Strateji əməkdaşlıq

## Prezident Vaşinqtonda müsahibə verib

Hesab edirəm ki, artıq ABŞ ilə strateji əməkdaşlıq formatına başlamağımız tarixi hadisədir. Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Vaşinqtonda Azərbaycan mətbuatına müsahibəsində deyib. Səfərin nəticələrindən çox məmnun qaldığını vurğulayan dövlətimizin başçısı əlavə edib: “Əminəm ki, bu səfərin konkret nəticələri yaxın gələcəkdə özünü büruzə verəcək”. Dövlətimizin başçısı onu da vurğulayıb Strateji Tərəfdaşlıq Xartiyasında gələcək əməkdaşlıq istiqamətləri açıq-aydın təsbit edilib.

# Prezidentlər danışıb

## Əməkdaşlıq dayandırılmayacaq

Azərbaycanla Ukrayna Rusiya tərəfindən qaz kompressor stansiyasına hava zərbələrinin endirilməsini pisləyib. Bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski ilə Azərbaycan Prezidenti İlham Əliyev arasında baş tutan telefon danışığı zamanı müzakirə aparılıb.

Telefon danışığı zamanı tərəflər Ukrayna ərazisində Azərbaycanın SOCAR şirkətinə məxsus neft anbarına və ölkəmizə aid digər obyektlərə, həmçinin Azərbaycan qazını Ukraynaya nəql edən qaz kompressor stansiyasına Rusiya tərəfindən məqsədyönlü şəkildə hava zərbələrinin endirilməsini pisləyib, bunun Azərbaycan ilə Ukrayna arasında energetika sahəsində əməkdaşlığın dayandırılmasına heç bir halda səbəb olmayacağına əminliklərini vurğulayıblar.

# “Xalqımızı təbrik edirəm”

## Birinci vitse-prezident paylaşım edib

Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair sosial şəbəkə hesablarında paylaşım edib. Paylaşımında sülh sazişinin paraflanması ilə yekun sülh sazişi istiqamətində mühüm addım atıldığını vurğulayan Birinci vitse-prezident qeyd edib: “Bu tarixi hadisə münasibətilə xalqımızı təbrik edirəm!

Qoy, hər zaman sülh olsun! Torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman oğullarımıza Allah rəhmət eləsin! Uca Tanrı hər zaman doğma Azərbaycanımızı qorusun!”.

# Fərman və sərəncamlar

*Azərbaycan Respublikası Prezidentinin 3 may 2017-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilib. Bununla bağlı Prezident İlham Əliyev avqustun 12-də yeni Fərman imzalayıb.*

*Prezident İlham Əliyev “Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” 4 yanvar 2021-ci il tarixli Sərəncamında dəyişiklik edib. Dövlət başçısı bununla bağlı avqustun 12-də yeni Sərəncam imzalayıb. .*

*Prezident İlham Əliyev avqustun 12-də Lənkəran rayonunun Hirkan–Daştatük–Biləsər avtomobil yolunun təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.*

*Sumqayıt Kimya Sənaye Parkının ərazisi genişləndiriləcək. Dövlət başçısı bununla bağlı avqustun 11-də Sərəncam imzalayıb.*


Ailələrin keşiyindəyik............................2

İkitəkərlilərin məsuliyyəti.......................2

Qoy təbiət qalib gəlsin..........................3

Paraflanmış sülh Sazişi.......................4

# Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2025-ci il avqust ayının 29-da Xaçmaz Rayon Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 28.08.2025-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

# Respublika Xəbərləri

### Dünyanın trendinə çevrildik

ABŞ-də avqustun 8-də baş tutan görüş zamanı “X” sosial şəbəkəsində “Azerbaijan” və “Ilham Aliyev” heştəqləri ilə çoxsaylı paylaşımlar edilib. Hər iki heştəq bir sıra ölkələrdə trend siyahısına yüksəlib. Bununla yanaşı, "Azerbaijan" adı altında paylaşımlar sosial mediada dünya miqyasında xəbər kateqoriyasında ikinci yeri tutub.

### Azərbaycandan enerji dəstəyi

Azərbaycandan nəql olunan təbii qaz Türkiyə-Suriya boru kəməri ilə Suriyanın Homs vilayətinə çatıb. Gündə 3,4 milyon kubmetr qaz ötürmə qabiliyyətinə malik boru kəməri ilə hazırda sutkada 1,4 milyon kubmetr qaz nəql edilir ki, bu da 250 meqavat elektrik enerjisi istehsal etməyə imkan verəcək.

### Köç davam edir

Xocalı rayonunun Xanyurdu kəndinə yola salınan növbəti köç karvanı kəndə çatıb, açarlar sakinlərə təqdim olunub. Xanyurdu kəndinə ilk mərhələdə 33 ailə (122 nəfər), bu mərhələdə isə 19 ailə (62 nəfər) köçürülüb. Bununla da kəndə köçürülən ailələrin sayı 52-yə (184 nəfər) çatıb.

### Ölkəmizdə ən böyük GES tikilir

Biləsuvar rayonunda Azərbaycanın ən böyük Günəş Elektrik Stansiyasının (GES) tikintisinə başlanılıb. Ümumi gücü 445 meqavat olacaq stansiyanın inşası məqsədilə 1 454 hektar ərazi ayrılıb. Layihənin icrasına Çin, Türkiyə, İspaniya və digər ölkələrdən başqa, Biləsuvardan 1 500 nəfər yerli əməkdaşın cəlb olunması planlaşdırılır.

### Ucarda çətənə bitkiləri məhv edilib

Ucar Rayon Polis Şöbəsinin əməkdaşlarının “Xaşxaş-2025” şərti adı altında həyata keçirdikləri kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər çərçivəsində rayonun Məlikballı kəndi ərazisində yabanı halda bitən narkotik tərkibli bitkilər aşkar edilib. Ümumi çəkisi 500 kiloqrama yaxın olan 511 ədəd çətənə bitkisi yandırılaraq məhv edilib.

### Qarabağda məşğulluq təmin edilir

Ağdərə, Laçın və Xocalı rayonlarına köçürülmüş sakinlərdən ümumilikdə 220 şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar qurulub.Yeni köçürülən Ağdərə, Laçın, Xocalı rayonlarında daha 26 sakinə özünüməşğulluq proqramı üzrə aktivlər verilib. Həmin sakinlər maldarlıq, keçiçilik, qoyunçuluq və arıçılıq zərfləri üzrə öz təsərrüfatlarını yaradıblar.

### Xankəndiyə yeni avtobus reysləri açılıb

Bərdə-Xankəndi istiqaməti üzrə avtobus reyslərinin sayı artırılır. Məlumata görə, avqustun 11-dən Bərdə-Xankəndi istiqaməti üzrə daha 3 reys fəaliyyətə başlayıb. Bununla da bu istiqamətdə gün ərzində 6 reysin həyata keçirilməsi nəzərdə tutulub. Sözügedən reyslər üzrə aralıq məntəqə olaraq Xocalı şəhəri təyin edilib.

# Ailələrin keşiyindəyik

## Münaqişəli ailələrlə profilaktik tədbirlər keçirilir

Cəmiyyətin əsas təməli ailədir. Amma bəzən bu kiçik sosial vahid daxilində yaranan gərginliklər, qarşılıqlı hörmətin və anlayışın pozulması həm ailə üzvlərinin psixoloji durumuna, həm də bütövlükdə ictimai təhlükəsizliyə mənfi təsir göstərir. Ailə daxilində baş verən zorakılıq halları təkcə iştirakçı tərəflərin münasibətlərini sarsıtmır, eyni zamanda, hüquqi nəticələr doğurur və qanunun müdaxilə etməsini tələb edir.

Ölkəmizdə bu məsələ daim diqqət mərkəzində saxlanılır. Qadınlara qarşı zorakılıq hallarının, ailə-məişət zəminində törədilən cinayətlərin qarşısının alınmasına dair 2025-ci il üçün bir neçə dövlət qrumunun birgə qəbul etdiyi Tədbirlər Planı da sistemli işin davamıdır.

DİN Baş İctimai Təhlükəsizlik İdarəsinin Yetkinlik Yaşına Çatmayanlarla Profilaktik İşlərin Təşkili Şöbəsinin rəis müavini, polis polkovnik-leytenantı İmran Əliyev qəzetimizə bildirib ki, hazırda həmin tədbirlər planına uyğun olaraq 5 rayonda görüşlər keçirilir. Polis əməkdaşları Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin nümayəndələri ilə birgə İsmayıllı, Gəncə, Qusar, İmişli və Lənkəranda münaqişəli ailələri qəbul edirlər. Münaqişələrin səbəbləri




araşdırılır, onların aradan qaldırılması üçün tədbirlər görülür, ailələrə psixoloji yardım göstərilir, zərurət olduqda sosial müəssisələrə yerləşdirmə və reabilitasiya işləri həyata keçirilir.

Onun sözlərinə görə, ümumiyyətlə ayda ən azı bir dəfə polis şöbələrinə dəvət olunan münaqişəli ailələrlə profilaktik söhbətlər aparılır. Əgər belə ailələrdə 16 yaşına çatmayan uşaqlar varsa, onlar xüsusi qeydiyyata götürülür, davranışları və ünsiyyət qaydaları nəzarətdə saxlanılır. Eyni zamanda, valideynləri münaqişəli vəziyyətdə olan uşaqlara da psixoloji dəstək verilir.

Bu il respublika üzrə 3 586 ailə münaqişəli kimi qeydiyyata alınıb, onlardan 807-si Bakı şəhərindədir. Onu da əlavə edək ki, hər bir ailə ilə ay ərzində ən azı bir dəfə yerli polis orqanlarında görüşlər keçirilir ki, bu da ilin səkkiz ayı ərzində aparılan profilaktik işlərin miqyasını göstərir.

Belə görüşlərdə psixoloji dəstəklə yanaşı qanunun tələbləri də diqqətə çatdırılır. Bildirilir ki, ailədaxili zorakılıq halları təkcə ailə üzvlərinin şəxsi məsələsi deyil.

Qanunvericiliyə əsasən, fiziki zorakılıq, təhqir, hədə-qorxu, iqtisadi məhdudiyyətlər və digər zorakı davranışlar inzibati və ya cinayət məsuliyyəti yarada bilər. Qanun həm zərərçəkənin təhlükəsizliyini təmin etmək, həm də zorakılıq törədən şəxsə qarşı müvafiq məsuliyyət tədbirlərinin görülməsini nəzərdə tutur.

Beləliklə, qeyd edə bilərik ki, münaqişəli ailələrlə maarifləndirmə, sosial dəstək mexanizmləri və hüquqi nəzarət paralel şəkildə aparılır.

Polisin profilaktik tədbirləri isə həm də onu göstərir ki, ailədaxili münaqişənin, məişət zorakılığına zəminin aradan qaldırılması ilə, bəzən ağır cinayətlə də nəticələnən ailə faciələrinin qarşısı vaxtında alınır.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Sabitliyə və təhlükəsizliyə töhfə

## Yaradılan şərait ali diqqət və qayğıdan xəbər verir










İqtisadi inkişafın qarantı olan təhlükəsizlik, sabitlik bu gün ölkəmizdə yüksək səviyyədə təmin olunub. Azərbaycanın təhlükəsizlik adasına çevrilməsini şərtləndirən əsas amillərdən biri polisin fədakar xidmətidir ki, bunu həm vətəndaşlarımız, həm də ölkəmizə təşrif buyuranlar təsdiq edirlər.

Paytaxtla bərabər regionlarda, işğaldan azad olunmuş ərazilərdə əhalinin artması, yeni iş yerlərinin yaradılması, daxili və xarici miqrasiya prosesləri icimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması sahəsində əlavə tədbirlərin görülməsi həm də polisin əlçatanlığına xidmət edir. Bu məsələ xüsusilə DİN rəhbərliyinin diqqət mərkəzindədir.

Əhalinin yerli polis qurumlarına inamının artırılması və yaşayış yeri üzrə polis sahə məntəqələrinə müraciət etmə imkanlarının asanlaşdırılması və genişləndirilməsi ilə bağlı görülən tədbirlər bunun bariz nümunəsidir.

Belə ki, Oğuz rayonun Kərimli kəndində istifadəyə verilən yeni polis sahə məntəqəsi də əhali ilə əlaqələrin genişləndirilməsinə və daxili işlər orqanları əməkdaşlarının üzərinə düşən vəzifələri vaxtında və dəqiq icrasına imkan verəcək.

Rayon Polis Şöbəsinin rəisi polis polkovnik-leytenantı Fərid Fətəliyev qəzetimizə bildirdi ki, yeni polis sahə məntəqəsinin açılması vətəndaşların məmnunluğu ilə müşahidə olunub. Çünki üzləşdiyi problemi həll etmək üçün vətəndaş rayon mərkəzinə üz tutmur, ərazi üzrə polisə müraciət edir və məmnun qalır.

Qeyd edək ki, polis sahə rəislərinin və sahə inspektorlarının iş fəaliyyətini yaxşılaşdırmaq üçün istifadəyə verilən məntəqə xidmət üçün hər cür şəraitlə, müasir avadanlıq, mebel və kommunikasiya sistemi ilə təchiz olunub, ətrafında yaşıllıqlar salınıb, həmişəyaşıl ağaclar əkilib.

# İkitəkərlilərin məsuliyyəti

## Skuter sürücülərinə qanunun tələbləri izah olunur



Son illərdə, xüsusilə Bakı şəhərində elektrikli skuterlər, digər ikitəkərli nəqliyyat vasitələri şəhər nəqliyyatında çevik və ekoloji alternativ kimi geniş yayılıb. Lakin bu nəqliyyat vasitələrinin sürətlə artması ilə yanaşı, yol hərəkəti qaydalarının pozulması halları da diqqət çəkir. Skuter sürücülərinin piyadaların istifadə etdiyi səkiyə çıxması, qoruyucu vasitələrdən istifadə etməməsi və sürət həddini aşması həm özləri, həm də digər yol iştirakçıları üçün təhlükə yaradır.

Mütəxəssislər hesab edir ki, ikitəkərli nəqliyyat vasitəsi sürənlər əsasən gənclərdir və onların bir qismi bu vasitələrə əyləncə obyekti kimi yanaşırlar. Halbuki bu cihazlar artıq əyləncə vasitəsi yox, rəsmi nəqliyyat vasitəsi statusu alıb və onlara qarşı qanunla müəyyən cərimələr tətbiq olunur.

Çünki qanunvericilikdə skuterlər “kiçik elektrik nəqliyyat vasitələri” kimi təsnif olunur və velosiped zolaqlarından istifadə edə bilərlər. Qayda pozuntusu hallarında 40 manat məbləğində cərimə tətbiq edilir, əgər nəticədə zərər vurularsa bu məbləğ 150 manata qədər artır. Bu isə bir daha göstərir ki, məsuliyyət təkcə avtomobil sürücülərinin deyil, bütün yol hərəkət iştirakçılarının üzərindədir.

Qaydalara görə, skuter sürücüləri yalnız yolun sağ zolağı ilə hərəkət etməli, varsa velosiped zolaqlarından istifadə etməlidirlər. Avtomobil yolunun sol və orta zolaqlarında hərəkət etmək qadağandır. Günün istənilən saatında skuterin həm ön, həm də arxa fənərlərinin işlək vəziyyətdə olması vacibdir. Bu vasitələr yalnız bir nəfərin istifadəsi üçün nəzərdə tutulub və sərnişin daşınması yolverilməzdir.

Daxili İşlər Nazirliyi də bununla bağlı verdiyi açıqlamalarda skuterlərin yol hərəkəti qaydalarına ciddi şəkildə əməl etməsinin vacibliyi vurğulanır. Sürücülərə piyadaların istifadə etdiyi səkiyə çıxmamaq, qoruyucu vasitələrdən istifadə etmək və sürət həddini aşmamaq tövsiyə edilir. Belə nəqliyyat vasitələrinin sürücüləri ilə bağlı profilaktik – izahedici tədbirlər də keçirilir.

Bu günlərdə paytaxt ərazisində həyata keçirilən növbəti tədbir zamanı yol hərəkəti qaydalarını pozan, sürət həddini aşan, təhlükəli manevrlər edən motosiklet sürücüləri müəyyən olunub, onlarla maarifləndirici söhbətlər aparılıb.

# Vətən sevdalı, torpaq ürəkli oğul

## Onlar tariximizdə, yaddaşımızda əbədi qalacaqlar



Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularımızdan biri də çavuş Orucov Afər Yafət oğludur. O, 1996-cı il martın 13-də Quba rayonunun Aşağı Atuc kəndində dünyaya gəlib. O, Aşağı Atuc kənd tam orta məktəbindən məzun olub. Bədii ədəbiyyatı həvəslə mütaliə edib, fiziki hazırlığına həmişə ciddi diqqət yetirib.

2014-cü ilin aprel ayında Afər müddətli həqiqi hərbi xidmətə çağırılıb. Dövlət Sərhəd Xidmətinin Cəlilabad və Lerik rayonlarında yerləşən "N" saylı hərbi hissələrində hərbi xidmət keçib. Sərhədçi olaraq hərbi xidmət borcunu vicdanla yerinə yetirib, dövlət sərhədimizin keşiyində ayıq-sayıq dayanıb. 2015-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətdən tərxis olunub. Ehtiyata buraxıldıqdan bir müddət sonra həyatını hərbçi peşəsinə bağlamağı qərar verib. 2016-cı ilin avqust ayının 13-dən etibarən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. "N" saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun baş atıcısı, həmçinin xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun atıcı-sanitarı və istehkamçı yarımqrupunun heyvan təlimçisi-istehkamçısı vəzifələrinə təyin edilib. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlib.

2018-ci ilin mart-aprel aylarında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin təşkil etdiyi "Əsas humanitar minaaxtarma təlimi"nə qatılıb. Bu təlimi müvəffəqiyyətlə bitirən xüsusi təyinatlıya müvafiq şəhadətnamə verilib.

Komandirləri tərəfindən nümunəvi xidməti nəzərə alınaraq bir neçə dəfə mükafatlandırılan Afər hərbçi şərəfini, xidmət etdiyi qoşunun nüfuzunu daim uca tutub. 2020-ci il sentyabrın 27-də erməni işğalçılarına qarşı başlayan Vətən müharibəsi xüsusi təyinatlı kimi onun da həyatının çətin və şərəfli sınağı olub...

Vətən müharibəsi qazisi, ehtiyatda olan baş gizir Xəyal Məmmədov Afərin yarımqrup komandiri olub. Deyir ki, Afər çalışqan, iradəli, dözümlü, təmkinli hərbi qulluqçu kimi yaddaşımda qalıb. Heyvan təlimçisi-istehkamçı olaraq xidməti itlərin təlimində, onlara düzgün qulluq göstərilməsində bacarığı ilə fərqlənib. Cəlilabad, Masallı, Lənkəran və Astara rayonlarının ərazilərində tapılan müxtəlif növ döyüş sursatlarının zərərsizləşdirilməsi üzrə tapşırıqların yerinə yetirilməsinə cəlb olunub. 2017-ci ildə Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarında, 2019-cu ildə isə voleybol üzrə beynəlxalq yarışda təhlükəsizliyin təmin olunmasında iştirak edib.

Onun ilk döyüşü Füzuli rayonunun Kərimbəyli kəndi ətrafında olub, "Beton post" adlanan mövqedə şiddətli atəşə tutulublar. Həmin istiqamətdə ərazilərimizin işğaldan azad olunması uğrunda döyüşlərdə mərdlik göstərib. Bununla yanaşı, Füzuli və Cəbrayıl rayonlarında ön mövqelərin müdafiəsində dayanıb. Müharibənin son mərhələsində Afərin döyüş yolu Xocavənd və Xocalı rayonlarının bir sıra kəndləri və yüksəkliklərindən keçməklə Şuşayadək davam edib. Şuşaya doğru bir neçə gün hərəkət edərək Topxana meşəsində cəmləşiblər. Orada ayrı-ayrı qruplara hərəkət istiqaməti müəyyən edilərək tapşırıqlar verilib. Şuşanın qala divarlarına tərəf irəliləyən qrupun tərkibində Afər də olub. Göstərilən ərazidə işğalçıların atəş nöqtələri susdurulub. Noyabrın 5-dən 6-na keçən gecə düşmən tankından atılan mərminin yaxınlıqlarında partlaması nəticəsində Afər şəhadətə ucalıb, Xəyal isə ağır yaralanıb.

"N" saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin istehkamçı yarımqrupunun istehkamçısı çavuş Famil Məmmədov da Vətən müharibəsi iştirakçısıdır. O, Afərin xalası oğludur, birgə döyüş yolu keçiblər. Famil Şuşa uğrunda döyüşlərdə yaralanıb. Famil Məmmədov: "Afərlə xidmət zamanı modul tipli yataqxanada eyni otaqda qalırdıq. Xaraktercə ədalətli və sədaqətli insan idi. Ürəyi Vətən sevgisi ilə döyünürdü. Məsuliyyətli hərbçi olub, öz peşəsi üzrə zəruri bilikləri mənimsəyib. Müxtəlif tədbirlərdə və əməliyyatlarda peşəkarlığı ilə seçilirdi. Xüsusi təyinatlı kimi öz məharətini, döyüş qabiliyyətini ön cəbhədə də nümayiş etdirdi. Komandirlər döyüşlərdə də ona güvənirdilər. Noyabrın 6-na keçən gecə, təxminən saat 1 radələrində Şuşa şəhərinin yaxınlığında işğalçılar tərəfindən tank, habelə minaatanlar vasitəsilə açılan atəşə məruz qalan döyüşçülərimizdən Vüsal, Afər və İsmayıl qəlpə yaralarından şəhid oldular. Bir neçə hərbi qulluqçumuz isə yaralandı. Həmin vaxt Afərin yanında idim. Çox sarsılmışdım, o anları xatırlamaq ağırdır. Noyabrın 10-da şəhidlərimizin nəşini təxliyyə etmək mümkün oldu...".

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 12 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə çavuş A.Orucovun 10 noyabr 2020-ci il tarixində Şuşada hərbi əməliyyat nəticəsində körpücükaltı arteriyasının travması, qəlpələrlə zədələnmələr səbəbindən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Şəhidin nəşi noyabrın 12-də ailəsinin yaşadığı evə gətirilib və həmin gün Quba rayonundakı Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 25, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş A.Orucov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Afərin qardaşı Şöhrət və Cahid Quba Rayon Polis Şöbəsinin əməkdaşlarıdır. Qardaşların polis sıralarında fəaliyyəti daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun şəhid ailələrinə olan diqqət və qayğısının təzahürüdür.

*Yalçın Abbasov*

# DİN BNMİ-dən əməliyyatlar

## Narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısı alındı

DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədi ilə əməliyyat tədbirləri davam etdirilir. Paytaxtın Xətai və Binəqədi rayonlarında keçirilən əməliyyatlar zamanı əvvəllər məhkum olunan 29 yaşlı Röyal Məmmədov və həmyaşıdı Cavad Məmmədov saxlanılıblar. Onlara məxsus mənzil və avtomobildən 15 kiloqram 460 qram tərkibinə zərərli maddələr əlavə edilmiş marixuana və narkotiklərin satışında istifadə olunan elektron tərəzilər aşkarlanıb. Onların şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşı ilə cinayət əlaqəsinə girərək narkotik vasitələri gizlədilən ünvanlardan əldə etdikləri və satış məqsədi ilə əvvəlcədən təyin edilən nöqtələrə yerləşdirməyi planlaşdırdıqları məlum olub. Faktla bağlı cinayət işi başlanılıb, hər iki şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Əməliyyatlar davam etdirilir.

# Təhlükəsizlik üçün maarifləndirirlər

## Masallıda da profilaktik tədbirlər keçirilib

Yay mövsümü ilə əlaqədar olaraq insanların turizm zonalarına üz tutması nəzərə alınaraq həmin məkanlarda vətəndaşların təhlükəsizliyinin təmin olunması məqsədilə Masallı rayonunda polis əməkdaşları tərəfindən profilaktik tədbirlər həyata keçirilib.



Tədbirlər çərçivəsində polis naryadları sürücülərlə profilaktik söhbətlər apararaq sürət həddinə, ötmə və manevr qaydalarına əməl olunmasının, sərxoş vəziyyətdə avtomobil idarə edilməsinin yolverilməzliyi barədə məlumat veriblər.

Vətəndaşlara istirahət etdikləri əraziləri çirkləndirməmək, azyaşlılar üzərində nəzarəti gücləndirmək və üzləşdikləri neqativ hallarla bağlı dərhal polis əməkdaşlarına məlumat vermək tövsiyə olunub.

Həmçinin, yay mövsümündə havaların isti və quraq keçməsi ilə bağlı meşəlik və açıq sahələrdə yanğın təhlükəsinin artması nəzərə alınaraq vətəndaşlara odla ehtiyatsız davranışın doğura biləcəyi təhlükələr və yanğına səbəb olacaq amillər barədə məlumatlar verilib.

# Qoy təbiət qalib gəlsin…

## Torpağın bağrını yaralayan yanğınlara səbəb olmayaq

Yanğınların böyük faciələrə səbəb olduğunu, insan ölümlərinə yol açdığını hər birimiz bilirik. "Odla oynamaq" xeyir gətirmir deyimi kiçik yaşlarımızdan yol yoldaşımız olub və odun təhlükəsini isə öz üzərimizdə, necə deyərlər, əlimiz yanında hiss etmişik. Od insanı soyuqdan qoruyub, həyatda sağ qalmaq üçün köməyinə çatıb. Od ər babalarımız da odun qoruqçusuna çevrilib.

Odun, ocağın xeyri, zərəri barədə bu qədər…

XXI əsrdə dünya od tutub yanır, qlobal istiləşmədən, sözün əsl mənasında, əziyyət çəkir. İqlim dəyişkənliyi ilə bağlı keçirilən tədbirlərin, səslənən fikirlərin, dünyanı, insanlığı qorumağa yönəlməsi başadüşüləndir. Bu, qlobal baxışdır, bəşəriyyət üçün həyacan təbilidir.

Bu gün paytaxtımızda, regionlarda, o cümlədən işğaldan azad olunmuş ərazilərdə ekoloji təhlükəsizliyin qorunması istiqamətində Fövqəlada Hallar və Daxili İşlər nazirlikləri tərəfindən yanğınla bağlı məsuliyyət tədbirlərinin görülməsi və profilaktikası sahəsində fasiləsiz xidmət aparılır. Bu qurumların sözügedən məsələyə birgə reaksiyası, operativ şəkildə gördükləri tədbirlər, atılan addımlar ictimaiyyətin rəğbət ilə müşahidə olunur.

Yeri gəlmişkən, avqustun 10-da Zəngilanda, avqustun 9-da Qəbələ şəhəri ərazisində, avqustun 8-də Xocavənd rayonunun Əmirallar kəndindəki qəbiris-





tanlıqda, avqustun 7-də Ağdərə rayonunun Dovşanlı kəndində yanğına səbəb olanlar, Şəkinin Aşağı Göynük kəndi ərazisində 860 hektar biçilmiş taxıl və örüş-otlaq sahəsini yandıranlar polis tərəfindən tapılıb, məsuliyyətə cəlb edilib və maarifləndirilib. Maarifləndirməni burada xüsusi vurğu ilə deməliyəm, çünki vəzifəmizin əsas təməllərindəndir.

Təhlükəli əməl törədən şəxs birmənalı olaraq qanunamüvafiq qaydada cəzalanmalıdır. Bu, məsələnin rəsmi, inzibati tərəfidir. Bir də sözgedən məsələnin, gündəm mövzusu olan yanğınların ruhani, vicdani tərəfi də var.

Məsələn, yandırdığınız o kol-kosun neçə canlıya, quşa, böcəyə yuva olduğunu bilirsinizmi? O kol-kosun içində ölkəmiz üçün endemik olan bitki örtüyünün məhv olmasından xəbəriniz varmı?

Və yaxud da işğaldan öncə ermənilərin torpaqlarımızda yanğınlar törətdiyini və hər birimizin həmin mənzərəni necə ürək ağrısı ilə seyr etdiyini nə tez unutduq?

Bütün hallarda yanğını insan törədir. Tək-tük təbii səbəblər istisna olmaqla…

Təbiətə atılan tullantılar, hətta kiçik kağız parçası, şüşə qırığı, polietilin torba, su butulkası və digər əşyalar yanğına səbəb olan əsas vasitələrdəndir. Kiçik bir səhlənkarlıq ucbatından baş verənlərin nələrə yol açdığını isə yanğınla mübarizə aparanların baxışlarının, ən çətin relyefdə belə min bir əzab-əziyyətə qatlaşıb canıyananlıqla köməyə çatmaq istəklərinin şahidi olduqdan sonra görmək mümkündür.

Yanğının daha geniş əraziləri cənginə almaması, həyatımızda faciələrlə yadda qalmaması üçün tələb edilənlərə əməl etməli, çağırışları ciddiyə almalıyıq.

Evi yanan insanları bir anlıq gözləriniz önünə gətirin. Heç də hamı onlara qucaq açmır. Onlar soyuqda, istidə, qarda, yağışda köməksiz qalmağın riskli, həyatlarına, doğmalarına təhlükəli olduğunu yaxşı bilirlər. Təbiət də, torpaq da bizim, bütün yaradılmışların evidir. Təbiətə yad davranışımız onun məhvini tezləşdirir.

Və keçmiş zamanların ən məşhur sözünü yenidən yada salmaq istəyirəm: "Biz təbiətlə mübarizə aparırıq, qalib gəlsək məhv olacağıq"…

Qoy təbiət qalib gəlsin, o qalib olanda insanlıq udur…

*Hafiz Təmirov*
*polis polkovniki*

# Sosial şəbəkənin "qazancı"

## Narkotik vasitə ilə tutuldu

"Instagram"-da tanış olduğu iranlı tərəfindən narkokuryerliyə cəlb olunan şəxs Qaradağ rayonunda 16 kiloqram marixuana ilə saxlanıldı. Qaradağ Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən narkotiklərin satışı və qanunsuz dövriyyəsinə qarşı həyata keçirilən əməliyyat zamanı 33 yaşlı Mirzə Mirzəyev saxlanılıb. Ondan ümumilikdə 16 kiloqram 145 qram narkotik vasitə olan marixuana aşkarlanıb. Saxlanılan şəxs narkotikləri "Instagram" sosial şəbəkəsində tanış olduğu İran vətəndaşından satış məqsədi ilə əldə etdiyini bildirib. M.Mirzəyevin bundan əvvəl də həmin şəxs tərəfindən kuryerliyə cəlb olunaraq paytaxt ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil etdiyi məlum olub. Faktla bağlı Qaradağ RPİ-də Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. M.Mirzəyev ilə əlbir olan digər şəxslərin də tapılaraq məsuliyyətə cəlb olunmaları istiqamətində tədbirlər davam etdirilir. Qeyd edək ki, son 3 ay ərzində polis əməkdaşlarının Qaradağ rayonunda həyata keçirdikləri əməliyyatlar zamanı 94 kiloqram narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

# Dələduz saxlanıldı

## Elan saytlarında saxtakarlıq edirdi

Elan saytlarında vətəndaşları aldadan şəxs tutulub. Oğuz Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə elan saytlarında vətəndaşları aldadan 28 yaşlı Orxan Hüseynov saxlanılıb. Şəki regional qrupundan bildirilib ki, o, ev heyvanları satmaq adı ilə saytlarda yalan elanlar yerləşdirib və onlayn yolla alıcıların maddi vəsaitini ələ keçirib. Faktla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir. O.Hüseynovun əməllərindən zərər görən başqa vətəndaşlar olarsa, polis orqanlarına məlumat verə bilərlər.

# Paraflanmış sülh Sazişi

## Uzunmüddətli sülhə, sabitliyə aparan yolun başlanğıcı qoyuldu

Məlum olduğu kimi, avqustun 8-də Azərbaycan Prezidenti, Amerika Birləşmiş Ştatlarının Prezidenti və Ermənistanın Baş nazirinin iştirakı ilə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri "Azərbaycan Respublikası ilə Emənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in mətnini paraflayıblar.

Bu Saziş Tərəflərin öz milli qanunvericiliklərinə uyğun olaraq daxili prosedurların bitməsi barədə bildiriş sənədlərinin mübadiləsindən sonra qüvvəyə minəcək.

Yeri gəlmişkən, paraflanma ifadəsi diplomatiya və müqavilə hüquqi terminologiyasına aiddir. Bu ifadə bir beynəlxalq müqavilənin və ya digər hər hansı beynəlxalq sənədin yekun mətninin tam razılaşdırıldığını göstərir, başqa sözlə onun mətninin dəyişdirilməyəcəyini təsdiqləyir.

Bu tarixi siyasi hadisənin əhəmiyyətini nəzərə alaraq paraflanmış mətni təqdim edirik:

Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında

### SAZİŞ

Azərbaycan Respublikası və Ermənistan Respublikası (bundan sonra Tərəflər), Bölgədə ədalətli, hərtərəfli və davamlı sülhün təsis edilməsinə təcili zərurəti anlayaraq,

Bu məqsədə dövlətlərarası münasibətlərin təsis edilməsi yolu ilə töhfə verməyi arzulayaraq,

BMT Nizamnaməsini, BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətləri və əməkdaşlıq ilə bağlı beynəlxalq hüququn prinsipləri haqqında Bəyannaməni (1970), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Konfransının Helsinki Yekun Aktını (1975) və 21 dekabr 1991-ci il tarixli Alma-tı Bəyannaməsini rəhbər tutaraq, və orada əks olunmuş norma və prinsiplər əsasında əlaqələri inkişaf etdirmək məqsədi güdərək,

Öz aralarında mehriban qonşuluq münasibətləri təsis etməklə bağlı qarşılıqlı iradəni ifadə edərək,

Aşağıdakılar əsasında öz aralarında sülh və dövlətlərarası münasibətləri təsis etmək barədə razılığa gəlirlər:

### Maddə I

Tərəflər, keçmiş SSRİ-nin Sovet Sosialist Respublikaları arasında sərhədlərin müvafiq müstəqil dövlətlərin beynəlxalq sərhədlərinə çevrildiyini və beynəlxalq birlik tərəfindən bu şəkildə tanındığını təsdiq edərək, bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər;

### Maddə II

Tərəflər, I Maddəyə tam riayət etməklə, bir-birinə qarşı hər hansı ərazi iddialarının olmadığını və gələcəkdə belə iddialar qaldırılmayacağını təsdiq edirlər;

Tərəflər digər tərəfin ərazi bütövlüyü və ya siyasi birliyini tamamilə və ya qismən parçalamağa yönəlmiş hər hansı bir hərəkətə, o cümlədən belə hərəkətlərin planlaşdırılmasına, hazırlanmasına, həvəsləndirilməsinə və dəstəklənməsinə yol verməyəcəklər.

### Maddə III

Tərəflər bir-biri ilə qarşılıqlı münasibətlərdə ərazi bütövlüyü və ya siyasi müstəqilliyə qarşı və ya BMT Nizamnaməsinə zidd olan hər hansı bir digər formada, güc tətbiq etməkdən və ya güc tətbiq etməklə hədələməkdən çəkinəcəklər. Onlar öz müvafiq ərazilərindən hər hansı üçüncü tərəfin digər Tərəfə qarşı BMT Nizamnaməsinə zidd olaraq güc tədbiq etmək üçün istifadə edilməsinə imkan verməyəcəklər.

### Maddə IV

Tərəflər bir-birinin daxili işlərinə müdaxilədən çəkinəcəklər.

### Maddə V

Tərəflər, bu Sazişin ratifikasiya olunması sənədlərinin hər iki tərəfdən mübadilə edilməsindən sonra gün ərzində öz aralarında Diplomatik və Konsulluq münasibətləri haqqında Konvensiyaların (müvafiq olaraq, 1961 və 1963-ci illərin) müddəalarına uyğun olaraq, öz aralarında diplomatik münasibətləri quracaqlar.

### Maddə VI

Tərəflər, hazırkı Sazişin I Maddəsindən irəli gələn öhdəliklərinə tam uyğun olaraq, onlar arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası haqqında Sazişin bağlanması məqsədilə müvafiq sərhəd komissiyaları arasında bu Komissiyaların razılaşdırılmış əsasnamələri əsasında vicdanla danışıqlar aparacaqlar.

### Maddə VII

Tərəflər qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər. Tərəflər, qarşılıqlı sərhədin delimitasiyası və sonrakı demarkasiyasının başa çatmasına qədər, sərhəd bölgələrində təhlükəsizlik və sabitliyin təmin olunması məqsədilə, hərbi sahə də daxil olmaqla, qarşılıqlı razılaşdırılmış təhlükəsizlik və etimad-quruculuğu tədbirləri həyata keçirəcəklər.

### Maddə VIII

Tərəflər dözümsüzlük, irqi nifrət və ayrıseçkilik, separatizm, zorakı ekstremizm və terrorizmin bütün təzahürlərini pisləyirlər və özlərinin müvafiq yurisdiksiyaları çərçivəsində bu hallarla mübarizə aparacaqlar və özlərinin bununla bağlı müvafiq beynəlxalq öhdəliklərinə əməl edəcəklər.

### Maddə IX

Tərəflər, onların hər ikisinin də cəlb olunduğu hərbi münaqişədə baş vermiş itkin düşmüş şəxslər və məcburi yoxaçıxma ilə bağlı halların həlli üçün birbaşa və ya müvafiq olduğu təqdirdə, aidiyyəti beynəlxalq təşkilatlarla əməkdaşlıq vasitəsilə, həmin şəxslər haqqında bütün mövcud məlumatların mübadiləsi də daxil olmaqla, tədbirlər görəcəklər. Tərəflər, bu çərçivədə, sözügedən şəxslərin taleyinə aydınlıq gətirilməsinin, o cümlədən, müvafiq olduğu təqdirdə, onların qalıqlarının axtarılması və geri qaytarılmasının, zəruri istintaq tədbirləri yolu ilə həmin şəxslərə münasibətdə ədalətin təmin edilməsinin barışıq və etimadın qurulması vasitəsi kimi əhəmiyyətini qəbul edirlər. Bununla əlaqəli müvafiq modallıqlar müzakirə ediləcək və ayrıca sazişdə təfərrüatlı şəkildə razılaşdırılacaqdır.

### Maddə X

Tərəflər, iqtisadiyyat, tranzit və nəqliyyat, ətraf mühit, humanitar və mədəniyyət daxil olmaqla, müxtəlif sahələrdə əməkdaşlığın təsis edilməsi üçün qarşılıqlı maraq kəsb edən aidiyyəti istiqamətlər üzrə ayrıca razılaşmalar bağlaya bilərlər.

### Maddə XI

Hazırkı Saziş Tərəflərin beynəlxalq hüquq və ya onların hər birinin digər BMT üzv- dövlətləri ilə bağlanmış müqavilələr üzrə hüquq və öhdəliklərinə xələl gətirmir. Tərəflərdən hər biri onunla digər hər hansı üçüncü tərəf arasında hazırda qüvvədə olan beynəlxalq razılaşmaların onun bu Saziş üzrə götürdüyü öhdəliklərinə xələl gətirməməsini təmin edəcəklər.

### Maddə XII

Tərəflər ikitərəfli münasibətlərində beynəlxalq hüququ və bu Sazişi rəhbər tutacaqlar. Tərəflərdən heç biri özünün daxili qanunvericiliyinin müddəalarına bu Sazişi icra etməməyə haqq qazandırmaq üçün istinad etməyəcəklər;

Tərəflər, Müqavilələr hüququ haqqında Vyana Konvensiyasına (1969) uyğun olaraq, bu Sazişin qüvvəyə minməsindən əvvəl onun obyekti və məqsədinə xələl gətirən fəaliyyətlərdən çəkinəcəklər.

### Maddə XIII

Tərəflər bu Sazişin tam icrasına zəmanət verirlər və hazırkı Sazişin icrasına nəzarət məqsədilə ikitərəfli komissiya təsis edəcəklər. Bu Komissiya Tərəflər arasında razılaşdırılacaq modallıqlar əsasında fəaliyyət göstərəcək

### Maddə XIV

Tərəflər, onların beynəlxalq hüquq və qarşılıqlı münasibətlərində onlar üçün məcburi xarakter daşıyan müqavilələr üzrə hüquq və öhdəliklərinə xələl gətirmədən, bu Sazişin təfsiri və tətbiqi ilə bağlı hər hansı mübahisəni, XIII Maddədə istinad olunan Komissiya da daxil olmaqla, birbaşa məsləhətləşmələr yolu ilə həll etmək istiqamətində çalışacaqlar. Bu məsləhətləşmələr 6 ay ərzində Tərəflərin hər ikisi üçün məqbul nəticə vermədiyi təqdirdə, Tərəflər mübahisələrin dinc yolla həllinin digər vasitələrinə müraciət edəcəklər.

### Maddə XV

XIV Maddəyə xələl gətirmədən, Tərəflər hər hansı bir hüquqi müstəvidə onlar arasında bu Sazişin imzalanmasından əvvəl mövcud olan bütün dövlətlərarası iddiaları, şikayətləri, etirazları, iradları, icraatları və mübahisələri bu Sazişin qüvvəyə mindiyi gündən bir ay ərzində geri çəkəcək, xitam verəcək və ya hər hansı bir formada həll edəcəklər və bir-birinə qarşı bu cür iddiaları, şikayətləri, etirazları, iradları və icraatları başlatmayacaq, və tərəflərdən hər hansı birinə qarşı hər hansı digər üçüncü tərəfin başlatdığı bu kimi iddia, şikayət, etiraz, irad və icraatlara hər hansı bir formada cəlb olunmayacaqlar;

Tərəflər bu Sazişin ziddinə bir-birinə qarşı diplomatik, informasiya və digər sahələrdə düşmən addımlar atmayacaq, bu addımları həvəsləndirməyəcək və ya hər hansı bir formada bu fəaliyyətlərə cəlb edilməyəcək və bu məqsədlə bir-birləri ilə müntəzəm məsləhətləşmələr həyata keçirəcəklər.

### Maddə XVI

Bu Saziş Tərəflərin öz milli qanunvericiliklərinə uyğun olaraq daxili prosedurların bitməsi barədə bildiriş sənədlərinin mübadiləsindən sonra qüvvəyə minəcək. Bu Saziş BMT Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq qeydiyyatdan keçiriləcək.

### Maddə XVII

Hazırkı Saziş Azərbaycan, erməni və ingilis dillərində bağlanılmışdır, bütün üç mətn bərabər autentikdir. Hər hansı autentik mətnin müddəasının təfsirində fikir ayrılığı olduqda ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

# XX əsrin cinayətlərindən...

## İllər sonra üstü açılsa da tarixdə iz buraxan cinayətlər unudulmur

1911-ci ildə "Mona Liza" əsəri Luvr muzeyindən oğurlanıb. Hamı "Mona Liza"nın məhv edildiyini düşünsə də əsər 3 il sonra İtaliyada tapılıb. Vinçenzo Perugi adlı şəxs onu satmağa cəhd edərkən polis tərəfindən saxlanılıb və "Mono Liza" muzeyə qaytarılıb.



***

1950-ci ildə Londondakı məşhur Hitrou Hava limanındakı "Brinks Mat" anbarına girən 11 nəfərlik dəstə təhlükəsizlik əməkdaşlarını zərərsizləşdirdikdən sonra 1,2 milyon dollar və 1,5 milyon dollar dəyərində çek oğurlayıblar. Dəstənin üzvü Jozef O-Kiif hər şeyi etiraf etdikdən sonra dəstə 1957-ci ildə ələ keçirilib.

***

8 avqust 1963-cü ildə Qlazqo və London arasında hərəkət edən poçt qatarı 15 nəfərdən ibarət dəstə tərəfindən talanıb. 7 milyondan artıq sərvət oğurlayan dəstəyə əməliyyat üçün cəmi 15 dəqiqə lazım gəlib. Polis isə onları tutmaq üçün 39 il çalışıb; dəstənin üzvü Roni Bigs 2001-ci ildə təslim olub.

***

İngiltərənin depozit bankının "Barings"in müştəriləri siyahısında hətta kraliça da olub. XX əsrin sonunda "Barings" əzmli və yeni işçilər üçün vakansiya elan edib. İşləmək üçün müraciət edənlərdən biri də Nik Lison olub. Qısa vaxtda uğur qazanaraq Sinqapurdakı şöbənin müdiri olan Lison daha sonra bankın kompüter sistemindəki bəzi məxfi məlumatları oğurlayıb. "Nikkie" birjasına daxil olan Lison təkcə özünün yox, bütün bankın büdcəsini ora yatırıb. Çox keçməmiş birja alt-üst olub və bank batıb. "Barings" holland şirkəti tərəfindən alınıb, Lisona isə 6 il yarım həbs cəzası verilib. Həbsdən çıxdıqdan sonra futbol komandalarının birində baş məşqçi işləyib.

# Dünya sığortaçılarının hesabatı

## Onlar təbii fəlakətlər üzündən 6 ayda 84 milyard dollar itirib

Bu ilin yanvar-iyul aylarında qlobal sığortaçılar təbii fəlakətlərdən dəyən zərərə görə 84 milyard dollar sığorta ödənişi həyata keçiriblər.

Nüfuzlu təkrarsığorta brokeri Gallagher Re-nin hesabatına istinadən xəbər verir ki, bu, 2011-ci ildən bəri ilin birinci yarısı üçün ən yüksək göstəricidir.

Bu, həm də son on ilin orta göstəricisi olan 54 milyard dollardan yarım dəfə yüksəkdir.

ABŞ-da dağıdıcı küləklər, ildırım çaxması və dolu ilə müşayiət olunan ən güclü tufanlar da daxil olmaqla sığortaçılara 32 milyard dollara başa gəlib. On bir fırtınanın hər biri 1 milyard dollardan çox, üçü isə hər biri 2 milyard dollardan çox itkiyə səbəb olub.

Cənubi Kaliforniyada yanvar yanğınları daha 40 milyard dollar zərər gətirdi, bu, tarixdə meşə yanğınları üçün maksimumdur.

Beləliklə, yanvar-iyun aylarında qlobal itkilərin təxminən 87 faizi ABŞ-ın payına düşüb.

Gallagher Re 2025-ci ilin sonuna qədər dünyada sığorta şirkətlərinin itkilərinin 100 milyard dollar həddini keçəcəyini proqnozlaşdırır.

# Fədakarlıq, əlçatanlıq nümunəsi

## Müraciətlərə baxılması, problemlərin həlli diqqət mərkəzindədir

Bakı şəhər sakini Calal Məmmədov Daxili İşlər Nazirliyinə ünvanladığı məktubunda üzləşdiyi dələduzluq faktı ilə bağlı müraciətinə operativ baxıldığına, obyektiv araşdırılaraq qısa müddətdə müsbət həll edildiyinə və ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərilən köməkliyə görə DİN-in rəhbərliyinə və Səbail Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Bakı şəhər sakini Məleykə Süleymanova Daxili İşlər Nazirliyinə ünvanladığı məktubunda üzləşdiyi dələduzluq faktı ilə bağlı müraciətinin obyektiv araşdırılaraq müsbət həll edildiyini qeyd edir. O, göstərilən köməkliyə, həmçinin diqqət və qayğıya görə DİN-in rəhbərliyinə və Qaradağ Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Vətəndaş Həyat Eyvazova DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı ünvanlayıb: "Nəsimi Rayon Polis İdarəsinə etdiyim müraciətlə bağlı mənə bütün lazımi köməkliklər göstərildi. Bu səbəblə, DİN-in rəhbərliyinə və Nəsimi RPİ-nin əməkdaşlarına minnətdarlığımı bildirirəm".

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik